Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakının gedişləri Ermənistanın revanşist qüvvələrinin fəaliyyətini tam iflasa uğradıb

**Ermənistnaın 44 gün davam edən Vətən müharibəsində məğlubiyyətindən sonra bu ölkə daxilində siyasi müstəvidə vəziyyətin kəskinləşməsi davam edir. Xatırladaq ki, Ermənistanın məğlubiyyətindən sonra müxalifət baş nazir Nikol Paşinyanın devrilməsi istiqamətində fəaliyyətə başladı, bu məqsədlə etiraz aksiyaları təşkil etdi.**

Lakin cəmiyyətdən lazımi dəstək ala bilmədi. Məhz bu vəziyyətdə Paşinyan müxalifətə qarşı yeni gedişlər etməyə başladı.

**Paşinyandan "Qarabağ klanı"nın revanşına qarşı sərt müqavimət**

Etiraz aksiyaları ilə hakimiyyətdən devrilməsinin mümkünsüzlüyünü görən Nikol Paşinyan hələ ötən ilin dekabrında növbədənkənar parlament seçkiləri keçirilməsi ilə bağlı təklifləri gündəmə gətirdi. Lakin 17 müxalifət partiyasının birləşdiyi "Vətənin xilası uğrunda hərəkat" Nikol Paşinyan qatılmayacağı halda növbədənkənar parlament seçkilərinin keçirilməsini mümkün saydığını bəyan etdi. Buna da Paşinyan razı olmadı. Belə bir vaxtda "Qarabağ klanı" və onun liderlərindən olan sabiq prezident Robert Köçəryan növbədənkənar parlament seçkilərində iştiraka hazır olduğunu bəyan etdi. Köçəryan artıq böyük siyasətə qayıtdığını da bildirir. Onun sözlərinə görə, indi aydın və güclü şəxsiyyətlərə böyük tələbat var: "Buna görə də yeni parlament seçkiləri ikiqütblü olacaq - mövcud hökumət və antipodlar arasında. İnsanlar populizmin meyvələrini daddılar, rəngli inqilabların nəticələrini və təcrübəsi olmayanların işlərini gördülər. Tamamilə fərqli tiplərə, komandalara, peşəkar menecer komandalarına, iradəsi olan insanlara, rəqiblərinin gözünə baxaraq həqiqəti söyləyə bilənlərə ehtiyac var. Və Ermənistanda belə bir komanda var". Həmin komanda qismində isə Köçəryan məhz özünü təqdim edir. O, müharibədə Ermənistanın məğlubiyyətindən sonra xalq arasında Paşinyanın dəstəyinin azaldığına ümid edərək, qalib gələ biləcəyini düşünür. Lakin belə görünür ki, bu dəfə Paşinyan növbədənkənar parlament seçkilərindən imtina edir. Məsələ burasındadır ki, bu günlərdə hakim "Mənim addımım" blokunun parlament fraksiyası Nikol Paşinyanla görüşüb. Görüşün təfərrüatları fraksiyanın "facebook"dakı rəsmi səhifəsində təqdim olunub. Məlumatda görüşün yekunlarına əsasən baş nazirin növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı təklifinin parlament müxalifəti tərəfindən dəstəklənmədiyi vurğulanıb. Bundan əlavə, geniş ictimaiyyət arasında növbədənkənar seçkilərin keçirilməsinə dair tələbin formalaşmadığı qeyd olunub. Bu səbəbdən növbədənkənar parlament seçkilərinin olmayacağı bildirilir. Bu da indiki halda Köçəryanın seçkilər vasitəsilə Paşinyanı devirmək planlarını alt-üst edir. Erməni politoloq Suren Surenyants belə vəziyyətdə Köçəryanın Paşinyan tərəfindən çıxılmaz vəziyyətə salındığını bildirir. Onun fikrincə, Köçəryan siyasətdən əslə ayrılmayıb, son müsahibələrində erkən seçkilərə qatılmaq planlarını elan etməsi isə Paşinyanın gedişi ilə pozulmuş hala gəlib: "Beləliklə, onun mövqeyi müxalif "Vətənin xilası uğrunda hərəkat"a mənsub partiyaların erkən seçkilərin keçirilməsi fikri ilə bağlı çox bədbin olan düşüncələrindən bir qədər fərqlidir. Serj Sarkisyanın prezidentliyi dövründə də Köçəryan ildə ən azı bir neçə dəfə bəyanatlar və müsahibələr vermiş, əsasən hakimiyyət orqanlarının iqtisadi siyasətini tənqid etmiş, yəni Köçəryanın siyasi karyera səhifəsi bağlanmamışdı. Paşinyan hökumətinin fiaskosu fonunda tamamilə təbii olan "güclü əllər" texnologiyasını tətbiq etməyə çalışır. Bu başqa bir məsələdir ki, cəmiyyətdə və Köçəryanda "güclü əl" fikirləri bir qədər fərqlidir". Surenyantsın fikrincə, "güclü əl" legitimliyi olan demokratik liderlə əlaqələndirilməlidir. Politoloq hesab edir ki, Köçəryan "güclü əldən" danışarkən hakimiyyət dövrünü nəzərdə tutursa, o zaman sadəcə avtoritar sistemin varlığından söhbət gedir. Bu səbəbdən Köçəryanın yenidən hakimiyyətə gəlişi ciddi sual altına düşür. Bununla onun Qarabağ məsələsində revanş planlarının həyata keçməsi də mümkünsüz hala gəlir.

"1in.am" saytı isə yazır ki, Köçəryan "Vətənin xilası uğrunda hərəkat" tərəfindən də lazımı dəstək ala bilmədiyindən çətin durumdadır: "Onunla "Vətənin xilası uğrunda hərəkat" nümayəndələrinin bəzi fikir ayrılıqları var. Söhbət onların növbədənkənar seçkiyə münasibətindən gedir. Vazgen Manukyanın rəhbərlik etdiyi hərəkat yekdil şərt kimi Paşinyanın istefası və müvəqqəti hökumətin formalaşdırılmasını irəli sürüb. Görünür, Köçəryan bu variantdan imtina edir, seçkidə iştiraka üstünlük verir. Bu da onu "Vətənin xilası uğrunda hərəkat"ın dəstəyindən məhrum edir. Müxalifət ya Köçəryanın iradəsi altında olmalıdırlar, ya da buna qarşı çıxmalıdır ki, bu zaman da onların məğlubiyyəti zəmanət altına alınıb. Bu halda Köçəryan parlamentdə ikinci güc olacaq, gələcəkdə onu gücləndirmək ümidi ilə yaşayacaq. Prezident olduğu dönəmdə Köçəryanı hakimiyyətə qaytarmamaq üçün hər şeyi edən və hətta inqilaba yardım edən Sarkisyan isə Köçəryanın təsiri altında qalacağı fikri ilə barışmalı olacaq. Bu planda kifayət qədər abstrakt situasiya yaranır. Belə ki, bir tərəfdən Serj Sarkisyanın Köçəryanı neytrallaşdırmaq üçün kifayət qədər resursu olmur, digər tərəfdən Köçəryana Sarkisyanı neytrallaşdırmaq həddən artıq çətinləşir". Bütün bunlar Paşinyanın lehinə işləməklə Köçəryanın revanşist planlarının da üzərindən xətt çəkir.

**Paşinyan sərbəst fəaliyyət imkanı qazanır**

Real vəziyyətin təhlili göstərir ki, müxalifərt, o cümlədən Köçəryan tərəfindən ciddi təhdidlə üzləşməyən Paşinyan üçün Azərbaycanla münasibətlərin normallaşması istiqamətində müvafiq addımlar atmaq elə də çətin olmayacaq. Bura ilk növbədə kommunikasiya əlaqələrinin bərpası daxildir. Rus ekspert Stanislav Pritçin "Moskva-Baku" portalına müsahibəsində bunun Ermənistanın özü üçün də vacib əhəmiyyət kəsb etdiyini bildirir: "Təbii ki, Azərbaycan üçün də Naxçıvanla yerüstü rabitənin bərpası vacibdir. İndiki halda Rusiya, Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar çərçivəsində dəmir yolu ilə bağlı iki variant nəzərdən keçirilir. Birincisi cənub marşrutudur ki, bu, Azərbaycan üçün çox faydalıdır. Bu, Mehridən keçən ən qısa yoldur. İkinci variant şimal marşrutudur. Ermənistan tərəfi bunda israr edir. Çünki bu, Ermənistanın bütün ərazisindən keçir və bununla da bütün tranzit potensialından istifadə etmək imkanı yaradır. Fikrimcə, ideal olaraq hər iki marşrutdan istifadə etmək yaxşı olardı. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması nəticəsində ölkələrin qarşılıqlı iqtisadi əlaqələr və onun çərçivəsində ortaya çıxan bütün pozitiv qərarlar ideal mənzərə yaradır. Yəni Azərbaycan, Ermənistan, Türkiyə arasında sərhədlərin açılması, diplomatik münasibətlərin qurulması və sair. Ermənistanın hər iki ölkə ilə əlaqəsi yoxdur. İndi Ermənistan üçün vəziyyət kökündən dəyişə bilər. Münasibətlərin blokdan çıxarılması və normallaşdırılması ssenarisi ölkənin inkişafı üçün ciddi təkan olacaq". Ekspert bu halda Paşinyanın ölkə daxilində dəstəyinin əhəmiyyətli dərəcədə artacağını da qeyd edir. Çünki maddi rifahı yüksələn erməni əhalisi üçün Qarabağ məsələsi çox arxa plana keçəcək. Bu xüsusda ekspert qeyd edir: "Əvvəllər hamı müharibəyə hazırlaşırdı və ÜDM-nin əhəmiyyətli bir hissəsi silahlanmaya, ordunun hazırlanmasına sərf edilirdi. İndi bununla zorla məşğul olmağa ehtiyac yoxdur. Sabah heç kimin hərbi proqramları dayandırmayacağı aydındır, bu, milli maraqların və strategiyanın bir hissəsidir və hər halda döyüşə hazır silahlı qüvvələrə dəstək vermək lazımdır. Lakin sülh və mehriban qonşuluq şəraitində silahlanma prioritet olmayacaq. Və istər Ermənistan, istərsə də Azərbaycan silahlanmaya ayırdığı vəsaitinin əsaslı hissəsini iqtisadiyyata yönləndirəcək. Çoxtərəfli iqtisadi əməkdaşlığın inkişafı baxımından Dağlıq Qarabağ nizamlanması bölgədəki bütün ölkələr üçün faydalıdır. Rusiya daxil olmaqla". Məhz belə bir şəraitdə Ermənistanda revanşist qüvvələrin hakimiyyətə gəlmək niyyətinin də üzərindən birdəfəlik xətt çəkilmiş olacaq. Bura "Qarabağ klanı" da şamil edilir.

**Paşinyan Bakının dedikləri ilə razılaşmağa məcburdur**

Beləliklə, hadisələrin gedişi göstərir ki, indi Ermənistan hakimiyyəti üçün ən məqbul variant Azərbaycanla razılığa gəlməklə normal münasibətlər qurmaqdır. Əslində, erməni iqtidarı üçün başqa çıxış yolu da yoxdur. Bu xüsusda Ermənistanın "Qafqaz" institutunun direktoru Aleksandr İskəndəyan qeyd edir: "Hakimiyyətin çıxış yolları azdır. Qarabağda nə baş verəcəyi bəlli deyil. Təkcə analitiklərə yox, həmçinin Moskvaya, İrəvana, Xankəndiyə bəlli deyil. Müharibə hərbi əməliyyatların başa çatdığı qədər bitib, bundan sonra adətən gələcəkdə regionumuzda necə yaşamaq lazım olduğu barədə hansısa "müqavilə" olur. Regionda yenidən təsnifləşdirmələr var, Ermənistanın isə masaya qoyulacaq heç bir oyun kartı yoxdur. Deməli o, Bakının dedikləri ilə razılaşmalıdır". Bu şəraitdə Paşinyanın Azərbaycanla razılığa gəlmək istiqamətində əməli fəaliyyəti, yuxarıda qeyd olunduğu kimi onun, eləcə də ölkəsinin xilası baxımından müstəsna əhəmiyyət kəsb edir. Əks təqdirdə, Paşinyanın iqtidardan devrilməsi qaçılmazdır və nəzərə alınmalıdır ki, bu məqsədlə Ermənistanda revanşist qüvvələrin sayı kifayət qədərdir. Bunu Paşinyan da bilməmiş deyil.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**